# Cocuq Mərcanlıda “tarla günü”

## Sakinlər dövlət başçısının diqqət və qayğısından razılıq edirlər

***❐ Cəbrayıl rayonunun düşməndən azad edilmiş Cocuq Mərcanlı kəndində pambığın intensiv texnologiyalar əsasında becərilməsi ilə bağlı “tarla günü” keçirilib. Məqsəd doğma yurd yerlərinə qayıdaraq böyük həvəslə əkin-biçin işləri ilə məşğul olan kənd sakinlərinə təcrübi biliklər vermək və bu sərhəd kəndinin əhalisinə mənəvi dəstək göstərməkdir.***

Gəlin etiraf edək ki, bu gün Cocuq Mərcanlı deyəndə, hər birimizin qəlbində Böyük Qələbəmizin lap yaxında olması, soydaşlarımızın doğma yurd yerlərinə mütləq qayıdacaqları ilə bağlı ümid hissləri güclənir. Həqiqətən, bu kəndin fədakar insanları ilə bağlı hər bir xoş xəbər, müjdə xüsusi məna və əhəmiyyət kəsb edir.

İndi isə söhbətin məğzinə keçək. Kənd Təsərrüfatı Nazirliyindən mətbuata verilən xəbərdə bidirilir ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Aqrar Elm və İnnovasiya Mərkəzinin təşkilatçılığı, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun, eləcə də Beyləqan Regional Aqrar Elm və İnnovasiya



Mərkəzinin (RAEİM) dəstəyi ilə elmi-praktik seminar və “tarla günü” keçirilib. Seminar Azərbaycanda bölgələrin torpaq-iqlim şəraitinə uyğun pambıq sortlarının seçilməsi, düzgün becərmə texnologiyalarının tətbiqi, eləcə də xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinə həsr olunub.

Məlumatda, həmçinin qeyd olunur ki, Aqrar Elm və İnnovasiya Mərkəzinin (AEİM) şöbə müdiri Nicat Nəsirli Cocuq Mərcanlı sakinlərinin diqqətinə çatdırıb ki, ötən ildən kənddə əhali arasında məşğulluğun yüksəldilməsi üçün təcrübə məqsədilə yeddi sortdan ibarət nümayiş əkinləri həyata keçirilib. Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun alimlərinin, Beyləqan AEİM-in həyata keçirdiyi texniki-məsləhət xidməti nəticəsində yerli və xarici sortlardan ibarət sahələrdə yüksək məhsuldarlıq əldə olunub.

Becərmə dövründə nümayiş sahələrində dəfələrlə məsləhət saatları keçirilərək, kənd fermerlərinin pambıq əkinləri haqqında məlumatlılıq səviyyəsi yüksəldilib. Bildirilib ki, növbəti təsərrüfat mövsümündən etibarən elmi-tədqiqat institutlarının, təcrübə stansiyalarının dəstəyi ilə Cocuq Mərcanlı kəndində kənd təsərrüfatının digər sahələrinin inkişafı təmin ediləcək.

Seminarda çıxış edən Cəbrayıl Rayon Fermerlər Şurasının sədri Oqtay Həziyev Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə kəndin sosial-iqtisadi inkişafına göstərilən dəstəyə görə təşəkkürünü bildirib və kənd sakinlərinin qayğılarını səsləndirib.

Bu yerdə kiçik bir arayış verməyə lüzum görürük. Hörmətli oxucu, indicə adını oxuduğunuz Oqtay Həziyev o şəxsdir ki, ağır təhlükə altında da uzun illər doğma Cocuq Mərcanlını tərk etməyib. 2006-cı il şanlı Aprel döyüşlərindən sonra Cocuq Mərcanlı kənd sakinləri artıq kütləvi şəkildə doğma yurda qayıdıblar.

Oqtay Həziyev dövlətimizin başçısı cənab İlham Əliyevə olan xüsusi rəğbət və məhəbbətini bu sözlərlə ifadə etdi:

–Mən xoşbəxtəm ki, İlham Əliyev kimi müdrik və qətiyyətli lideri olan bir dövlətin vətəndaşıyam. Bütün qəlbim və ruhumla inanıram ki, Ali Baş Komandanımın rəhbərliyi altında bütün Qarabağ düşmən əsarətindən azad olunacaq.

Yeri gəlmişkən, O.Həziyev hazırda Cəbrayıl RİH başçısının Cocuq Mərcanlı kəndi üzrə icra nümayəndəsidir. O dedi ki, hazırda kənddə yüzlərlə sakin yaşayır və onların hər biri dövlətimizin başçısı möhtərəm İlham Əliyevə bu kəndə göstərdiyi böyük diqqət və qayğıya görə son dərəcə minnətdardır.

Yenə də əvvəlki mövzuya qayıdıram. Elmi-praktik seminar kəndin pambıq sahələrində davam etdirilib. Beyləqan AEİM-in direktoru Mirağa Kazımov, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun şöbə müdirləri Ələddin Tağıyev, Mahirə Vəliyeva aran bölgələrində “Gəncə-182”, “Gəncə-103”, “Gəncə-160”, “Gəncə-78” yerli sortların üstünlükləri haqqında fermerlərə məlumat veriblər.

Bildirilib ki, yerli sortlar qısa vegetasiyalı olduğu üçün növbəli əkin sisteminin qurulması, eyni sahədən ildə iki dəfə məhsul əldə olunması üçün əlverişlidir.

Cocuq Mərcanlı kəndində 2016-cı ildən etibarən sakinlər tərəfindən pambıq əkininə başlanmış, eyni zamanda, həmin ildən tut tingləri əkilməklə baramaçılığın imkişafı üçün təməl yaradılmışdır. Kənd sakinləri bu il 6 hektarda pambıq yetişdiriblər. Bundan başqa, onlar 8 hektarda şəkər çuğunduru, 12 hektarda yonca, 2 hektarda tərəvəz becəriblər. Hazırda kənddə tikilməkdə olan suvenir istehsalı müəssisəsində işlər sürətlə davam etdirilir.

Yeri gəlmişkən, Cocuq Mərcanlı kəndində bir neçə gündür ki, pambıq yığımı başlayıb, fermer və torpaq mülkiyyətçiləri artıq minbir zəhmətlə əkib becərdikləri “ağ qızıl”ı tarlalardan toplamağa başlayıblar.






Məlumat üçün bildirək ki, bu il avqustun 8-də 2019-cu ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib. Yığıncaqda Cəbrayıl Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

İclasda Cəbrayıl Rayon İcra hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək qeyd edib ki, cari ilin 6 ayında rayon üzrə 17 min 920 ailə təsərrüfatında birləşmiş 81,4 min nəfər rayon əhalisinin müvəqqəti kompakt məskunlaşma yerlərində, ümumilikdə, 24 səyyar görüş-qəbul keçirilmişdir. Həmin görüşlərdə 950 nəfər rayon sakini iştirak edərək, onları narahat edən məsələlərlə bağlı 129 təklif irəli sürmüşdür. Onlardan 38-i müsbət həll olunmuş, 91-i barədə isə müvafiq tədbirlər görülmüşdür.

RİH başçısı sonra bildirib ki, bu ilin birinci yarısında “2007-ci ildə istifadəyə verilmiş 1856 ailəlik beş qəsəbəyə 1 saylı qəsəbədəki anbardan su nəql edən uzunluğu 15 min metrdən çox olan mərkəzi boru xəttinin dəyişdirilməsinə başlanmış və qısa vaxt ərzində işlər tam başa çatdırılmışdır. İndi həmin 5 qəsəbənin daxili içməli su xəttinin dəyişdirilməsi istiqamətində iş aparılır.

Dünya Bankının və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun maliyyə dəstəyi ilə Biləsuvar rayonu ərazisində 2003-cü ildə tikilmiş 2598 evdən ibarət 6 qəsəbənin daxili yollarının əsaslı təmirinə başlanmış, iş hazırda davam edir.

2019-cu ildə rayon baramaçıları keçən ildəkindən 3 dəfədən çox olmaqla, 4 ton 840 kiloqram yaş barama yetişdirərək “Azəripək” MMC-yə təhvil vermiş, nəticədə, ümumilikdə, 43 min 560 manat gəlir əldə etmişlər.

Eyni zamanda, pambıq əkini ilə məşğul olan sakinlər bu il 102 hektardan bir qədər çox sahədə pambıq əkmiş, hazırda yüksək məhsul əldə edilməsi üçün aqrotexnikaya uyğun işlər görülməkdədir.

Bu il aqrar sahənin əsas istiqamətləri üzrə cəbrayıllı fermer və torpaq mülkiyyətçiləri üçün uğurlu olmuşdur. Belə ki, bu ilin məhsulu üçün, ümumilikdə, rayon üzrə 2980 hektarda taxıl, 948 hektarda yonca, 31 hektarda kartof, 102 hektarda pambıq, 68 hektarda bostan-tərəvəz və 140 hektardan çox təkrar qarğıdalı əkilmiş, taxıl sahələrində biçin 22 gün müddətində tam başa çatdırılmış, 10 min 185 ton taxıl məhsulu yığılaraq, hər hektardan 34,2 sentner məhsul əldə edilmişdir.

Keçən il rayon əhalisindən cəmi 148 nəfər özünüməşğulluq layihəsi çərçivəsində təlimə cəlb olunaraq biznes ideyasını müdafiə etmiş, onlardan indiyədək 106 nəfər sakinimiz aktivlərlə təmin olunmuş, 2019-cu ilin 6 ayında 71 nəfər özünüməşğulluq proqramı çərçivəsində təlimə cəlb olunaraq kursu bitirmişlər.

Bu ilin 6 ayı ərzində, rəsmi statistikaya görə, rayon üzrə 169 nəfər daimi işlə təmin olunmuşdur.

***Səməd HÜSEYNOĞLU,***
***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***